# AŞIQ ƏLƏSGƏRİN HEYKƏLİ GÖYÇƏDƏ DƏ UCALDILACAQ



**Dövlət başçımız İlham Əliyevin Sərəncamı ilə söz-sənət ustadı Aşıq Ələsgərin möhtəşəm heykəlinin Bakı şəhərinin görməli yerlərinin birində ucaldılması bir daha ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Eyni zamanda tədbirdə söylənilən fikirlər Qərbi azərbaycanlılarda doğma Vətənə qayıdışla bağlı əminlik yaradır.**



1947-ci ildə **Göyçə mahalının Kəvər rayonunun Ağzıbir kəndində anadan olmuş Tahirə Tağıyeva** ilə həmsöhbət olduq. Tahirə xanım doğma vətənindən deportasiyaya məruz qalan soydaşlarımızdan biridir. Söhbət zamanı onun gözlərindəki sevinci görməmək mümkün deyildi.

Doğrusu, Aşıq Ələsgərin Bakı şəhərində heykəlinin ucaldılması ağbirçəyin hədsiz sevincinə səbəb olmuşdur. Tahirə Tağıyeva 1957-ci ildə doğma yurdundan ailəsi ilə birlikdə Ağdaş rayonuna köçmüşdür. Lakin Ağdaşın isti iqliminə dözə bilməyən ailə yenə də nəğməli Göyçə gölünün sahilinə, Ağzıbir kəndinə qayıtmışdır. Bir müddət adıçəkilən yerdə yaşamış, lakin burada yaşamağın mümkünsüzlüyünü nəzərə alaraq yenidən ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalmışlar.

Qeyd etmək lazımdır ki, Ağzıbir kəndi, sözün əsl mənasında, cənnəti xatırladan bir yerdir. Göyçə gölü ətrafında olan kəndlərin sakinləri əsasən balıqçılıqla məşğul olmuşlar. Sözsüz ki, belə bir füsunkar mənzərəli yerdən isti iqlimə məxsus olan yerlərə köçürülmə əsl faciə idi. Bu səbəbdən müsahibim kifayət qədər yaşının olmasına baxmayaraq, hələ də o yerlərə getməkdə israrlıdır.

Tahirə xanım bildirdi ki, hazırda övladları ali təhsilli, cəmiyyətdə özlərinə xüsusi yer tutmuş şəxslərdir. Qeyd etdi ki, vəziyyətimiz o qədər də pis deyil.

Lakin nədənsə ata-baba torpaqlarımız bir an belə yadımızdan çıxmır. Hər an sanki maqnit kimi bizi özünə cəzb edir.

Bir məsələni də xüsusilə vurğuladı ki, Ulu Öndər Heydər Əliyev keçmiş SSRİ rəhbərliyində çalışarkən hər zaman Qərbi azərbaycanlıların mənafeyini müdafiə etməyə çalışmışdır. 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyi doğulduğu Basarkeçər rayonunun Ağkilsə kəndində təmtəraqla keçirildi. Eyni zamanda Moskva, Bakı və İrəvanda da dahi aşığın yubileyinin keçirilməsi Heydər Əliyevin SSRİ dövləti qarşısındakı şəxsi nüfuzunun əyani sübutu idi.

Ümummilli Lider Goranboy rayonunun Aşağı Ağcakənd kəndində 13 sentyabr 2002-ci il tarixdə əslən Göyçədən olan soydaşlarımızla görüşü zamanı demişdir: "Mən inanıram, tam inanıram ki, öz doğma dağlarınızı, çaylarınızı, bulaqlarınızı görəcəksiniz. Ata-babaların qəbirlərini görəcəksiniz. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm".

Ali Baş Komandan İlham Əliyev hər zaman ata vəsiyyətini yerinə yetirir, verdiyi vədə sadiq qalır. Bu gün bəşər tarixində misli-bərabəri olmayan möhtəşəm qələbə nəticəsində 30 ildən artıq işğal altında qalan vətən torpaqları düşməndən azad olundu.

Prezident İlham Əliyev Aşıq Ələsgərin heykəlinin açılışı zamanı söylədiyi nitq bir daha o yerlərə qayıdışa ümid verir: "Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşayan qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni, Qərbi Azərbaycana qayıdış dövrünü də görəcəyik. Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar məktəblərə gedirlər. Bunu birinci dərs günü göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram abhavası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar. Hər şey bizim əlimizdədir".

Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı layihələr nəticəsində sakinlər öz doğma ata-baba torpaqlarına böyük sevinc hissi ilə qayıdırlar. Həmin ərazilərdə əvvəlkindən qat-qat yüksək şərait yaradılır.

Biz Qərbi azərbaycanlılar tam əminik ki, vandal ermənilər tərəfindən aşıq sənətinin dahisi Aşıq Ələsgərin tamamilə yerlə-yeksan olunmuş abidəsinin yerində tezliklə möhtəşəm heykəl ucaldılacaq. Dövlət başçısının bu addımı Qərbi azərbaycanlıların hədsiz sevincinə səbəb olmuşdur.

Müsahibim bildirdi ki, arzum odur ki, bircə dəfə ana yurduma baş çəkəm, ulularıın məzarını ziyarət edəm (əgər vəhşi ermənilər dağıtmayıblarsa), nəğməli, füsunkar gözəlliyi ilə insanı valeh edən Göyçə gölünün kənarında bir azca dincəlim. Həmin günü hər bir Qərbi azərbaycanlı səbirsizliklə gözləyir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**